**COP29 çərçivəsində qlobal təşəbbüslərlə bağlı yüksək səviyyəli tədbir keçirilib**

Sentyabrın 24-də BMT Baş Assambleyasının 79-cu sessiyası və Nyu-York İqlim Həftəsi çərçivəsində BMT-nin Baş Qərargahında COP29 Sədrliyinin Fəaliyyət Gündəliyinə daxil olan qlobal təşəbbüslər ilə bağlı yüksək səviyyəli paralel tədbir təşkil edilib.

AZƏRTAC-ın məlumatına görə, COP29 Sədrliyinin təşkilatçılığı ilə baş tutmuş tədbirin məqsədi Fəaliyyət Gündəliyinə daxil olan qlobal təşəbbüslər barəsində ətraflı məlumatın geniş auditoriyaya çatdırılması, BMT-nin ixtisaslaşmış təşkilatlarının, beynəlxalq inkişaf banklarının, üzv dövlətlərin yuxarı vəzifəli nümayəndələrinin və BMT-nin İqlim Dəyişikliyi Konvensiyasına tərəf olan dövlətlərin nümayəndə heyətlərinin iştirakı ilə COP29 Sədrliyinin fəaliyyət prioritetlərinin gücləndilməsi, iqlim dəyişikliyi ilə mübarizədə qlobal səylərin birləşdirilməsi üçün əməkdaşlıq və tərəfdaşlıq imkanlarının müzakirə edilməsi olub.

Tədbir zamanı COP29 üzrə Baş danışıqçı, xarici işlər nazirinin müavini Yalçın Rəfiyev açılış nitqində COP29 Sədrliyinin Fəaliyyət Gündəliyinin iqlim sahəsində bütün əsas istiqamətlər boyu irəliləmək kimi ambisiyalı səylərini təmsil etdiyini və enerji, maliyyə, kənd təsərrüfatı, su, şəhərlər, insan inkişafı, eləcə də iqlim və sülhün qarşılıqlı əlaqəsi kimi bir sıra əsas prioritetləri ehtiva etdiyini diqqətə çatdırıb. Qeyd edib ki, maliyyənin iqlim fəaliyyətinin mühüm icra mexanizmi olduğunu nəzərə alaraq, COP29 Sədrliyinin qlobal təşəbbüsləri icra mexanizmlərinə xüsusi diqqət yetirməklə hazırlanıb.

Daha sonra COP29 Sədrliyinin qlobal təşəbbüslərinin hazırlanması prosesində göstərdikləri dəstəyə görə BMT-nin ixtisaslaşmış təşkilatlarına təşəkkür ifadə edən Baş danışıqçı çıxış sözü həmin təşkilatların yüksək rütbəli nümayəndələrinə verib. Natiqlər aidiyyəti sahələr üzrə COP29 Sədrliyinin qlobal təşəbbüslərinin əhəmiyyətini vurğulayıb və onların icrasına dəstək ifadə ediblər.

Çıxışlardan sonra Yalçın Rəfiyev COP29 Sədrliyinin Fəaliyyət gündəliyinə daxil olan 14 təşəbbüs barədə təqdimat edib, təşəbbüslərin iqlim fəaliyyətinə önəmli töhfə verəcəyini bildirib. Sual-cavab sessiyası zamanı nümayəndə heyətlərinin sualları cavablandırılıb.

Daha sonra xarici işlər nazirinin tədbirə müraciəti səsləndirilib. Çıxışda Azərbaycanın ambisiyaları artırmaq və iqlimlə bağlı fəaliyyətə imkan vermək üçün nümunə göstərməyə hazır olduğu vurğulanıb, bütün ölkələr, təşkilatlar, xeyriyyə qurumları və maliyyə təsisatlarının və hər bir fərdin bu mühüm missiyada COP29 Sədrliyinə qoşulmasına, sürətli və qətiyyətli hərəkət etməsinə çağırış edilib.

Yekun nitqində Yalçın Rəfiyev tədbir iştirakçılarını COP29-da fəal iştiraka çağırıb.

**Məlahət Nəcəfova**
**AZƏRTAC-ın xüsusi müxbiri, Nyu-York**

**AZƏRTAC**
**2024, 25 sentyabr**